Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

**Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"**

# Bütün həyatını xalqına həsr edən şəxsiyyət

## Heydər Əliyev xalqımızın taleyinə xoşbəxtliyin məbədgahı kimi daxil olub



**Bəşəriyyət elə şəxslər yetirir ki, onlar insanlığın ən ali zirvəsinə çatdıqlarından haqqında bir söz deməyə adam çətinlik çəkir. Bu insanlar öz fitri istedad və qabiliyyətlərinə, bilik və dünyagörüşlərinə, vətənpərvərlik və milli ruhlarına görə ətrafdakılardan kəskin surətdə fərqlənir, böyük hörmət və məhəbbət sahibi olurlar. Bax bu şərəfli yolun yolçularından biri də qanı və canı ilə Azərbaycana bağlı olan, onun yolunda ömrünü şam kimi əridən, dünya siyasətçilərinin korifeylərindən biri olan Heydər Əliyev idi.**

Türkiyə Respublikasının baş naziri və prezidenti olmuş Süleyman Dəmirəlin öz qardaşı və dostu Heydər Əliyevin vəfatı münasibətilə yazdığı "Tarixə məktub" başlıqlı yazıda oxuyuruq:

"Başlanğıcda böyük çətinliklər oldu. Ölkə rəhbərliyində münaqişə oldu. Bir çoxları rəhbərliyə iddia etdilər, mübarizə getdi. Bu əsnada da Qarabağ torpaqları erməni işğalına məruz qaldı. Təkcə Qarabağ torpağı yox, onun xaricində də Azərbaycan rayonları işğala uğradı. 1 milyon insan qaçqın vəziyyətinə düşdü. 1993-cü ilin iyun ayında Azərbaycan vətəndaş müharibəsinin astanasına gəldi. Azərbaycan Respublikası 1920-ci ildə olduğu kimi yıxılacaqdımı, ayağa qalxacaqdımı? Bir xilaskar lazım idi. Bax burada hörmətli Heydər Əliyev Milli Məclis tərəfindən vəzifəyə dəvət edildi. Daha sonra Azərbaycan xalqının azad iradəsi ilə prezident seçiləcəkdir.

Çörçill ingilis millətinə 40 il xidmət etdi, ancaq bu xidmətin sonunda, 1940-cı ildə lazım oldu. O zaman Çörçillin edəcəyi xidməti göstərəcək ikinci adam yox idi. Bəşər tarixində insanlar hər zaman millətlərinə xidmət edirlər, ancaq bəzən lazım olurlar. Ruzveltin 1942-ci ildə, de Qollun 1958-ci ildə, Adenauerin 1946-cı ildə lazım olduğu kimi... Hörmətli Heydər Əliyev Azərbaycan millətinə çox xidmət etmişdir, amma 1993-cü ildə lazım idi. Onun gördüyü işi görəcək başqa heç kim yox idi. Yaxşı ki, o, vardı! Biz belə düşündük və haqlı çıxdıq!" (Məqalə Türkiyədə çıxan nüfuzlu "Hürriyyət" qəzetində dərc edilib - F.İ. )

Müdrik və ağıllı siyasətçi Süleyman Dəmirəl Heydər Əliyevi o insanlarla müqayisə edir ki, onlar bütövlükdə XX əsr dünya siyasətinə bilavasitə təsir göstərmiş, müasir dünyanın siyasi mənzərəsini müəyyən etmiş siyasət nəhəngləridir. Bəli, siyasi xadimlərin qalereyasında Heydər Əliyev dühasının özünəməxsus yeri və sanbalı vardır.

Ulu Tanrının Heydər Əliyevə bəxş etdiyi ən ali nemətlərdən biri onun iç dünyasının insani keyfiyyətlər mənbəyinə çevrilməsidir. Dərin zəkası, yüksək humanizmi, böyük siyasi uzaqgörənliyi, sarsılmaz qətiyyəti, polad iradəsi, iti fəhmi, bəlağətli nitqi, möhkəm yaddaşı, insanlarla bənzərsiz ünsiyyət qabiliyyəti və saymaqla tükənməyəcək digər ali insani dəyərləri onun fenomenliyini bir daha sübut etməklə bu gün yer kürəsinin bir sıra xalqlarını belə heyrətdə qoymaqdadır.

Heydər Əliyev tarixi həqiqəti olduğu kimi dərindən anlamış, həyat həqiqətini hər şeydən öncə Azərbaycan milli özünüdərk nöqtəsindən işıqlandırmışdır.

Fransanın "Kuryer İnternasional" jurnalının baş redaktoru A.Adlerin Heydər Əliyevə həsr edilmiş "Nadir şəxsiyyət" adlı məqaləsində yazılır: "Tanrının son dərəcə güclü ruh bəxş etdiyi Heydər Əliyev dərin daxili ləyaqətə, özünə hörmət qazandırmaq bacarığına, habelə sarsılmaz iradəyə malikdir və öz xalqına sıx bağlıdır. Tanrı bu şəxsiyyəti tək öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb bir şəraitdə göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır. Belə hünərlər göstərən şəxsiyyət fövqəladə şəxsiyyətdir".

Heydər Əliyev fenomenindən danışarkən qeyd etmək lazımdır ki, hər hansı bir siyasətin uğuru onun həyata keçirilməsi uğrunda mübarizə aparanların intellektual səviyyəsindən, bacarıq və qabiliyyətindən asılıdır. Hesablamalara görə, Heydər Əliyev öz fəaliyyəti dövründə ən azı 500 min hadisənin, prosesin içərisindən keçib və həmişə də hadisəni idarə edən aktiv tərəf - subyekt olubdur. Təkcə 1993-1998-ci illərdə Prezidentimiz 33 ölkəyə 79 səfər etmiş, 5 il ərzində Azərbaycan ilə xarici ölkələr arasında 431 beynəlxalq sənəd imzalanmışdır. Bu uğur hər tarixi şəxsiyyətə nəsib olmayan nadir və fenomenal nəticədir.

Görkəmli dövlət xadimi kimi Heydər Əliyevin seçilən xüsusiyyətlərindən biri də elmi, mədəniyyəti, mənəviyyatı himayə etməsidir. Elə dövlətlər var ki, orada mənəvi problemlər aktuallıq kəsb etmir, bu məsələni həyata keçirmək dövlətin borcu hesab olunmur. Amma Azərbaycanda milli ideologiyada mənəviyyat məsələsi dövlət quruculuğunun zəruri amilinə çevrilmiş və Heydər Əliyev onu yüksək səviyyədə həyata keçirmişdir.

Ümummilli liderimizin həyat və fəaliyyətinin hər bir ciddi faktı və hadisəsi xalqın düşüncəsində, yaddaşında dərin iz qoymuşdur. Bu mübarizənin qalibiyyətini təmin edən əsas qüvvə isə, heç şübhəsiz, Heydər Əliyev şəxsiyyətində təzahür edən milli iradə, möhtəşəm xalq ruhudur.

Corc Vaşinqton ABŞ dövlətini, Atatürk Osmanlı imperiyasının qalıqları üzərində Türkiyə Cümhuriyyətini, Adenauer İkinci Dünya müharibəsindən sonrakı Almaniya dövlətini qurduğu kimi, Heydər Əliyev də demokratik əsaslarla bugünkü Azərbaycan dövlətini qurubdur. Fərq isə ondan ibarətdir ki, heç bir tarixi dövrdə dünya bugünkü səviyyədə qloballaşmamışdı. Onun nəticəsində Azərbaycana uzanan, görünən və görünməz əlləri saymaq çox çətindir. Heydər Əliyev son dərəcə ağır şəraitdə Azərbaycanın əldə etdiyi müstəqillikdən istifadə edərək demokratik dövlət qurumunu və öz şah əsərini - müstəqil Azərbaycan Respublikasını yaratmışdır.

Müstəqil Azərbaycana başçılıq edən Heydər Əliyev öz fəaliyyətinin elə ilk addımlarından çox böyük uzaqgörənliklə tarixin mürəkkəb keşməkeşlərində müdrik fəaliyyət strategiyası və taktikası müəyyən edərək özünün cəsarətini, mətinliyini, mərdliyini və siyasi peşəkarlığını bütün parlaqlığı ilə göstərdi.

Heydər Əliyevin həyata keçirdiyi siyasi xəttin müvəffəqiyyətlərindən biri də siyasətdə irsiyyət və davamçılığın zərurətə çevrilməsidir. Bu mənada bu gün ölkəmizdə Heydər Əliyev siyasi kursunun davam etdirilməsini təmin edən İlham Əliyev kimi siyasətçimiz vardır. Bu isə Heydər Əliyev uzaqgörənliyinin bəhrəsidir.

Bizim xoşbəxtliyimiz Azərbaycanın xoşbəxtliyidir ki, tərəqqinin sükanı bu gün ümummilli lider Heydər Əliyev irsinin sadiq davamçısı, yeni formasiya rəhbərliyinin layiqli nümayəndəsi İlham Əliyevin əlindədir.

İnsan o vaxt yüksək zirvəyə çatır ki, bütün qüvvəsini qarşıya qoyduğu məqsədin reallaşmasına yönəltsin. İnsan o vaxt ideallaşır ki, xalq yolunda qarşısına qoyduğu məqsədə çatsın. Ümummilli liderimiz nahaq yerə deməmişdir ki, "Mən bütün həyatımı Azərbaycana, xalqa həsr etmişəm!"

Heydər Əliyev dünən də, bu gün də, gələcəkdə də xalqımızın taleyinə xoşbəxtliyin məbədgahı, dövlət, azadlıq, müstəqillik və suverenlik kimi əziz nemətləri milyonlara ərməğan edən müqəddəs bir varlıq olaraq daxil olub, daim nur saçan sönməz işıq kimi yanacaqdır.

Allah rəhmət etsin, qəbri nurla dolsun!



**FİZULİ İBRAHİMZADƏ**
**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Humanitar fənlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru**